

# Tariximizin şanlı səhifəsi

***Yaxın günlərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanının, həmçinin Zəngəzur dəhlizinin– Horadiz– Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun, Zəngilan rayonunda Türkiyənin dəstəyi ilə inşa ediləcək “Ağıllı aqropark”ın təməlqoyma mərasimlərində iştirakı Ermənistan üzərindəki tarixi Qələbəmizin növbəti nümunəsidir. Buna qədər qardaş ölkə Prezidenti bir dəfə də işğal olunmuş ərazilərimizə – Şuşaya səfər etməmişdi. 2021-ci il iyunun 15-də reallaşan həmin səfər zamanı Cıdır düzündə səslənən müsiqi sədaları bütün dünyaya yayıldı. Ən başlıcası isə Şuşa Bəyannaməsi imzalandı və bununla da iki ölkə arasındakı müttəfiqlik hüquqi status qazandı. Müttəfiqlik Bəyannaməsi dünyada çox nadir ölkələr arasında imzalanır. Bu sənəd ölkələrimizə bütün istiqamətlərdə birgə fəaliyyət göstərməyə imkan verəcək.***

Qürurverici haldır ki, Azərbaycan bu sənədi artıq qalib ölkə kimi imzalayıb. Bu gün qalib ölkədə yaşamağımız hər birimizi qürurlandırır. Əlbəttə, bu zəfər heç də asan qazanılmayıb. Bu tarixi qələbə möhtərəm Prezidentimiz, qüdrətli Ali Baş Komandan İlham Əliyevin 17 il ərzində düzgün müəyyənləşdirdiyi siyasi və iqtisadi strategiyanın məntiqi nəticəsidir.

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi müddətdə ordu quruculuğunun inkişafını, beynəlxalq standartlar səviyyəsinə qaldırılmasını daim diqqət mərkəzində saxlamışdır. 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdi ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq . Dövlət başçımızın həmin nitqindən bəzi məqamları diqqətə çatdırmaq istərdim: “Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”. “Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır”.

Möhtərəm Prezidentimiz bütün vədlərinə sadiq olduğu kimi, bu vədini də yerinə yetirdi. On yeddi il ərzində Azərbaycanda çox güclü ordu formalaşdı. Elə bir ordu ki, 44 gün ərzində işğal altında olan torpaqlarımızı düşməndən azad etdi. Elə bir ordu formalaşdı ki, dünyanın 50 ən güclülərindən biri oldu. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, qüdrətli ordumuzun qarşısına qoyulduğu vəzifə layiqincə yerinə yetirildi, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi. Dünyanın ən güclü dövlətlərinin, nüfuzlu beynəlxalq qurumların, üç qüdrətli dövlətdən ibarət ATƏT-in Minsk qrupunun 30 il ərzində nizamlaya bilmədikləri Ermənistan işğalçılıq siyasətinə Prezident, qüdrətli Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz 44 gün ərzində son qoydu. Respublikamızın rəhbəri sübut etdi ki, münaqişənin hərbi-siyasi yolla həlli mümkün idi. Halbuki, beynəlxalq təşkilatlar cidd-cəhdlə sübut etmək istəyirdilər ki, münaqişə yalnız danışıqlar masası arxasında həll oluna bilər.

Torpaqları işğala məruz qalmış dövlətlər üçün ərazi bütövlüyünün bərpası məsələsi tarix boyu ən müqəddəs vəzifələrdən biri olub. Bu vəzifənin yerinə yetirilməsi dövləti qaliblər sırasına çıxarır, onun xalqını daha məğrur edir, qürurlandırır. Belə bir qürur doğuran taleyi indi Azərbaycan yaşayır. Ermənistan tərəfindən işğala son qoyaraq ərazi bütövlüyünü təmin edən xalqımız son 200 illik tarixinin ən şərəfli səhifələrini yazdı.

Bu Zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi. Möhtərəm Prezidentimiz dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdi ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir “dəmir yumruq” yaradıb düşmənin başını əzdik. Müharibənin ilk günündən xalq dövlət başçımız ətrafında sıx birləşdi, siyasi həmrəylik, sarsılmaz birlik nümayiş etdirdi. “Dəmir yumruğ”umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirdi. Bu gün, başımız uca, alnımız açıqdır. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu: Bu işğala, haqsızlığa son qoyulsun, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

Yeri gəlmişkən, Azərbaycan Silahlı Qüvvələri bu tarixi Qələbəyə qədər 3 dəfə Ermənistan ordusuna ağır zərbələr vurmuşdu. 2016-cı ilin Aprel döyüşləri tarixi Qələbəmizin başlanğıcı oldu. O döyüşlərdə düşmən ağır itki verərək, silah-sursatını atıb qaçdı. Həmin döyüşlərdə 25 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımızın 2 min hektarı, o cümlədən bir sıra strateji yüksəkliklər azad edildi.

2018-ci il may ayı ərzində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

İki il sonra – 2020-ci il iyul ayında Ermənistan ordusu yenidən təxribatlara əl atdı və Tovuz rayonu istiqamətində atəşkəsi pozdu. Bu dəfə də layiqli cavablarını aldı. Tovuz döyüşləri də Azərbaycanın hərb tarixinə zəfər döyüşü kimi daxil oldu. Əməliyyatlar bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almaqda çətinlik çəkmir. Yüzdən çox hərbçisi və onlarca hərbi obyekti məhv edilən Ermənistan silahlı bölmələrinin şəxsi heyəti hətta silah-sursatı qoyub qaçdı. Təcavüzkar Ermənistan rəhbərliyi cəbhədəki ağır məğlubiyyətini xalqdan gizlədərək, hərbi rəhbərliyin doğru olmayan məlumatlarını yayırdı.

İşğalçı Ermənistan ordusu faşizm xislətini heç cür ört-basdır edə bilmirdi. Əvvəlki illərdəki məğlubiyyət sanki yaddaşlardan silinmişdi. Ötən il sentyabrın 27-də işğalçılar genişmiqyaslı hücumları zamanı qarşılarında güclü Azərbaycan Silahlı Qüvvələrini gördülər. Onlara elə gəlirdi ki, sanki Azərbaycan və onun ordusu 1990-cı illərdə olduğu vəziyyətdədir. Ancaq şahid oldular ki, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun “Dəmir yumruq” əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi bütün müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçırdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar ordumuz tərəfindən qənimət kimi götürüldü.

Qırx dörd gün davam edən Vətən müharibəsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində Qələbə ilə başa çatdı. Ötən il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin, həmçinin Ermənistanın baş naziri Nikol Paşinyanın birgə imzaladıqları üçtərəfli Bəyanat müharibəyə son qoydu. Bu bəyanatla işğalçı Ermənistan kapitulyasiyaya, təslim olmağa məcbur edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Azərbaycan müharibənin əvvəlcədən sülhə məcburetmə əməliyyatı olduğunu, qan tökmək və torpaq qəsb etmək məqsədi güdmədiyini bildirirdi. Məğlubiyyət bəyanatının Ermənistan tərəfindən imzalanması isə sülhə məcburetmə əməliyyatının uğurla bitməsinin təsdiqi oldu.

Qalib sərkədə, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun 30 illik işğala son qoyaraq torpaqlarımızı azad etməsi dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu Zəfər hər birimizdə qürur hissi oyatdı, intizarında olduğumuz qələbənin sevincini yaşatdı. Eyni zamanda, haqq-ədalət uğrunda apardığımız müharibənin nəticəsi olan bu şanlı Qələbə xalqımızı bütövləşdirdi, daha mübariz etdi, siyasi həmrəyliyimizi, milli birliyimizi gücləndirdi və hər birimizin iftixar ünvanına çevrildi. Biz torpaqlarımızı, öz gücümüzlə hünər meydanında azad etməyimizlə fəxr edir və qürur duyuruq.

Dünya ictimaiyyəti də şahidi oldu ki, 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu özünün möhtəşəm Qələbəsi ilə dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında öz təcəssümünü tapdı. Beynəlxalq ictimaiyyət də gördü ki, Ermənistanın məğlubedilməz ordusunun olması barədə deyilənlər tamamilə əfsanə imiş. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın məğlubedilməzliyi barədə illərdən bəri formalaşdırılmış mifi ilk gündən alt-üst etdi və bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi.

Bu Qələbə həm də iqtidar-xalq-ordu vəhdətini nümayiş etdirdi. Həm də ilk gündən Azərbaycanın yanında olduğunu açıq şəkildə nümayiş etdirən Azərbaycan – Türkiyə dostluğunun, qardaşlığının sarsılmazlığını təsdiqlədi.

Ötən il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilən zaman da bunun şahidi olduq. Dövlətimizin başçısı da öz nitqində bunu xüsusi vurğulayaraq dedi: “Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir.

Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”.

Müharibə başlayan gündən dünya birliyi Prezident, Ali Baş Komandanımız İlham Əliyevin qəti iradəsinin, məntiqli çıxışlarının, ordumuzun gücünün, xalqımızın milli birliyinin və vətəndaş həmrəyliyinin şahidi oldu. Ordumuz döyüş meydanında, xalqımız isə arxa cəbhədə böyük məsuliyyətlə əsl vətəndaş həmrəyliyi, birlik, güc göstərdi. Bütöv Azərbaycan naminə Qarabağın işğaldan azad edilməsi məqsədinə nail olmaq üçün hər bir Azərbaycan vətəndaşının Vətənin müdafiəsinə qalxmağı, Qarabağa aparan yolda bütöv hərəkatın tərkib hissəsi olmağını görmək çox qürurverici idi. Çoxdandır gözlədiyimiz Azərbaycanın ərazi bütövlüyünü görmək bizə nəsib oldu. Ulu öndər Heydər Əliyevin də dediyi kimi; “Gün gələcək, Azərbaycan dünyaya Günəş kimi doğacaq!” O Günəş 10 noyabr 2020-ci ildə doğdu!

Hazırda işğal olunmuş ərazilərdə yenidənqurma, tikinti və bərpa işləri geniş vüsət alıb. Möhtərəm Prezidentimiz İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tez-tez həmin ərazilərdə olur, tikinti və abadlığa şəxsən nəzarət edirlər.

Xalqımıza , dünya azərbaycanlılarına yaşatdıqları 30 illik Qarabağ həsrətinə son qoyulması, zəfər, sevinc, qürur, fəxarət hissləri üçün möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə, qəhrəman ordumuzun hər bir əsgər və zabitinə bir daha təşəkkür edir, şəhidlərimizin ruhu qarşısında baş əyirik.

***Səadət İSMAYILOVA,***
***Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Nərimanov Rayon Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri, hüquq elmləri üzrə fəlsəfə doktoru***